

# ŞUŞANIN YOLLARI APRELDƏN KEÇİR

**Naibə Səmədova,**
***R.Qəmbərov adına 5 nömrəli Şuşa tam orta məktəbinin direktor müavini***

2016-cı ilin aprel döyüşləri şuşalıların qəlbindəki ümid çıraqlarını bir daha alovlandırdı, 25 ildən bəri həsrətini çəkdiyimiz yollara işıq saçdı. Cocuq-Mərcanlı kəndinin abadlaşdırılması, orada Şuşa məscidinə bənzər məscidin ucaldılması ümidimizi, fərəhimizi birə yüz artırdı. Deməli, qələbə bizə yaxındır, o binalar, o xəstəxana, o məktəb, o məscid tezliklə Şuşada da inşa ediləcəkdir. Qaçqınlar, məcburi köçkünlər bilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onların himayədarıdır, ərazi bütövlüyünün keşiyində duran sərkərdədir. Azərbaycanın üçrəngli bayrağı məhz onun rəhbərliyi ilə Şuşada da dalğalanacaqdır. O gün bütün Azərbaycan üçün bayram olacaqdır. Şuşaya qovuşmaq, onu görmək milyonlarla azərbaycanlının arzusudur.

İlham Əliyev prezidentliyi dövründə bir gün də düşmən tapdağında olan torpaqlarımız diqqətdən kənarda qalmamışdır. Ümidvarıq ki, yaxın vaxtlarda ərazi bütövlüyümüz bərpa olunacaqdır. Ona görə də, şuşalılar bütün xalqımız kimi aprelin 11-də cənab İlham Əliyevə səs verəcək, onun prezident seçilməsini bayram edəcəkdir.

Biz, prezidentimiz İlham Əliyevin xarici və daxili siyasətini tam bəyənir, onun dövlət başçıları arasındakı nüfuzuna sevinirik. Azərbaycanın günü-gündən yeniləşməsinə məhz onun zəhməti, bəhrəsi kimi baxırıq. Şuşalı müəllimlər bütün məktəblərdə seçkilərlə əlaqədar hazırlıq işlərində fəal iştirak edir, səsvermə gününü səbirsizliklə gözləyirlər.

Respublikamızın müxtəlif rayonlarında təhsil alan şuşalılar Azərbaycanın musiqi beşiyi olan Şuşanın həsrətində yaşayırlar. Onlar qəti inanırlar ki, şuşalıları Şuşaya ulu öndərin davamçısı İlham Əliyev qovuşduracaqdır.

Taleyin bizə verdiklərinə şükür edirik və onu qorumağa, möhkəmləndirməyə səylə çalışırıq.

Prezidentliyə yeganə namizədimiz cənab İlham Əliyevdir. 2018-ci ilin apreli bizi Şuşamıza yaxınlaşdırır.